**RAZILAŞDIRILMIŞDIR:**

**Azərbaycan Respublikası**
**Maliyyə Nazirliyinin**
**Dövlət Sığorta Nəzarəti**
**Xidmətinin rəisi**

**_______________ N.Xəlilov**

**«___» ___________ 2011-ci il**

**TƏSDİQ EDİRƏM:**

**"Qala Həyat" Sığorta Şirkəti**
**Açıq Səhmdar Cəmiyyətinin**
**İdarə Heyəti sədrinin**
**vəzifəsini müvəqqəti icra edən**

**_______________ A.Cəlilov**

**«19» ___________ 2011-ci il**

# HƏYAT SIĞORTASI QAYDALARI

Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, «Sığorta fəaliyyəti haqqında» Qanununa və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**Anlayışlar**

Əgər qaydalarda başqa cür nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunan termin və ifadələr aşağıdakı mənaları daşıyır:

**Sığortalı** - Sığortaçı ilə bu Qaydalar əsasında müqavilə bağlayan və sığortaya görə haqq ödəyən hüquqi və ya fəaliyyət qabiliyyəti olan fiziki şəxsdir;

**Sığortaçı** - sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs;

**Sığorta olunan** - sığorta müqaviləsi əsasında əmlak mənafeləri sığortalanan, əlillik dərəcəsi olmayan fiziki şəxs. Fiziki şəxs olan Sığortalı öz maddi maraqları ilə bağlı bu Qaydalar əsasında Müqavilə bağladıqda həm də Sığorta olunan qismində çıxış edir. Əgər Sığortalı və Sığorta olunan ayrı-ayrı şəxslərdirsə, müqavilə yalnız Sığorta olunanın və ya onun qanuni nümayəndəsinin yazılı razılığı ilə bağlana bilər;

**Faydalanan şəxs** - Müqaviləyə görə sığorta ödənişini almaq hüququ olan hüquqi və ya fiziki şəxs. Faydalanan şəxs qismində Sığorta olunan, onun öldüyü halda isə müqavilədə müvafiq olaraq fayda əldə edən qismində göstərilmiş şəxs çıxış edir;

**Aktuari** - qanunvericiliyə uyğun olaraq iqtisadi-riyazi hesablamalar aparmaqla sığorta haqlarının hesablanmasının əsaslarını müəyyən edən, həmçinin sığorta ehtiyyatlarını hesablayan mütəxəssis;

**Sığorta müqaviləsi** - sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində Sığortalının özünün və ya Müqavilədə Sığorta olunan qismində göstərilən başqa şəxsin müəyyən yaşa çatdığı, öldüyü və ya Müqavilədə nəzərdə tutulmuş digər sığorta hadisəsinin baş veriyi təqdirdə Müqavilə ilə şərtləşdirilmiş sığorta məbləğini bir dəfəyə və ya vaxtaşırı faydalanan şəxsə ödənilməsini sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma;

**Sığorta şəhadətnaməsi** - Sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən Sığortaçı tərəfindən sığorta Qaydaları əlavə edilməklə Sığortalıya hər bir sığortalanmış şəxs üçün verilən imzalı sənəd;

**Sığorta hadisəsi** - Müqavilədə nəzərdə tutulan və baş verməsi ilə Sığortaçının, müəyyən edilmiş qaydada səlahiyyətli dövlət orqanının verdiyi və sığorta hadisəsinin baş verməsini təsdiq edən sənədlərin ona təqdim edilməsi şərti ilə müqavilə ilə müəyyənləşdirilmiş sığorta məbləğini Faydalanan şəxsə ödəmək vəzifəsini yaradan haldır (hadisədir);

**Bədbəxt hadisə** - kənar fiziki təsirlə əlaqədar olan və Sığorta olunanın həyatı və sağlamlığına zərər vuran qəfil, gözlənilməz və təsadüfi hadisə;

**Sığorta məbləği** - Müqavilə üzrə öz öhdəliklərini yerinə yetirmək üçün Sığortaçının məsuliyyətinin həddini müəyyən edən pul məbləği. Sığorta məbləğinin və ya sığorta təminatının həcmi tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilir;

**Sığorta haqqı** - Sığortalının sığortaya görə Sığortaçıya (və ya brokerə, yaxud agentə) Müqavilə üzrə ödəməli olduğu pul məbləği;

**Sığorta ödənişi** - sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

**Sığorta tarifi** – sığorta haqqının hesablanması üçün müəyyən edilən dərəcə;

**Qaytarılan məbləğ** – Həyatın yığım sığortası üzrə müqavilənin vaxtından əvvəl xitam olunduğu halda Sığortalıya, Sığorta olunana və ya Faydalanan şəxsə ödənilməsli olan pul məbləği;

**Riskli məbləğ** – sığorta məbləği ilə müqavilənin qüvvədə olduğu hər hansı günədək yaradılmış sığorta haqqlarının riyazi (aktuar) ehtiyyatının məbləği arasındakı fərq;

**Gözləmə müddəti** - sığorta hadisəsi nəticəsində həmin müddət ərzində yaranan itkilərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsi.

**1. Sığortanın sinifi**

1.1. Sığorta obyektinə görə şəxsi sığortaya aid olan aşağıdakı sığorta sinifləri:

1.1.1. Sığortalı və ya sığorta olunan öldükdə sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan həyatın ölüm halından sığortası;

1.1.2. Sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə sığorta olunanın öldüyü, yaxud sığorta müqaviləsində müəyyən edilmiş yaşa, müddətə qədər yaşadığı halda sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan həyatın yaşam sığortası;

1.1.3. Sığorta olunanın müəyyən yaşa çatması, yaşı, əlliliyi və ya xəstəliyi ilə əlaqədar əmək qabiliyyətini itirməsi, ailə başçısını itirməsi, işsiz qalması və şəxsi gəlirlərinin azalmasına, yaxud itirilməsinə səbəb olan digər hallarda pensiya, yaxud renta şəklində dövri sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan annuitet sığortası;

1.1.4. Sığorta olunanın xəstəlik və ya bədbəxt hadisə nəticəsində əmək qabiliyyətini tam və ya qismən itirdiyi halda, onun itirilmiş gəlirinin əvəzini ödəmək məqsədi ilə sığorta ödənişlərinin həyata keçirilməsini nəzərdə tutan əmək qabiliyyətinin itirilməsi hallarından sığorta;

1.1.5. Sığorta olunanın səhhətində onun həyatını təhlükə altına qoyan sağalmaz xəstəliklə əlaqədar sığorta ödənişlərinin həyata keçirilməsini nəzərdə tutan sağalmaz xəstəliklərdən sığorta.

**2. Sığorta predmeti**

Bu qaydalara əsasən sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs sığortanın predmeti hesab olunur.

**3. Sığorta obyekti**

Bu qaydalara əsasən sığorta obyekti, sığortalının və ya sığorta olunanın həyatı, sağlamlığı, əmək qabiliyyətini itirməsi ilə bağlı əmlak mənafeləridir.

**4. Sığorta məbləği**

4.1. Sığorta məbləği sığortaçının öhdəliyinin son həddidir.

4.2. Sığorta məbləği tərəflərin razılığına əsasən müəyyən olunur.

4.3. Sığorta ödənişi verildikdən sonra sığorta məbləği ödənilmiş məbləğ həcmində azalır. Sığortalı əlavə sığorta haqqı müqabilində ilkin sığorta məbləğini bərpa edə bilər.

**5. Sığorta hadisəsi**

5.1. Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsi üzrə Sığortaçı Sığortalıya, bu Qaydaların «İstisnalar» bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla aşağıdakılar nəticəsində baş vermiş sığorta hadisələrinə sığorta təminatı verir:

5.1.1. Sığorta olunannın sığorta müqaviləsi ilə müəyyən olunmuş müddətin sonuna qədər yaşaması;

5.1.2. Sığorta olunanın müqavilənin qüvvədə olduğu müddət ərzində ölməsi;

5.1.3. Sığorta olunanın bədbəxt hadisə nəticəsində əmək qabiliyyətinin daimi tam və ya qismən itirməsi;

5.1.4. Sığorta olunanın bədbəxt hadisə və/və ya xəstəlik nəticəsində əmək qabiliyyətinin müvəqqəti itirməsi;

5.1.5. Sığorta olunanın sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində həmin müqavilədə qeyd olunmuş sağalmaz xəstəliyə (xəstəliklərə) tutulması.

**6.Ümumi istisnalar:**

6.1. Ölüm riskindən əsas təminatlar üzrə istisnalar:

6.1.1. Əgər sığorta müqaviləsində başqa cür nəzərdə tutulmayıbsa, Sığorta olunanın ölməsi, aşağıdakıların nəticəsində baş vermişdirsə, sığorta hadisəsi hesab edilmir:

6.1.1.1. Sığorta olunanın üçüncü şəxslərin qanunazidd hərəkətləri nəticəsində özünü öldürmək həddinə çatdırılması və ya intihara məcbur edilmə halları istisna olmaqla, sığorta olunanın sığorta müqaviləsinin bağlanmasından sonrakı ilk 2 (iki) il ərzində intiharı;

6.1.1.2. Sığorta olunanın hərbi əməliyyatlar, vətəndaş qarşıdurmaları, hərbi çevrilişlər və xalq ixtişaşlarında iştirak etməsi, həmçinin Sığorta olunanın hərbi xidmət keçməsi, hərbi toplanışlarda, təlimlərdə iştirak etməsi və s. bu kimi hallar.

6.2. Əgər sığorta müqaviləsində başqa cür nəzərdə tutulmayıbsa, bədbəxt hadisə və yol nəqliyyat hadisəsi nəticəsində baş vermiş ölüm və ya əmək qabiliyyətinin daimi və müvəqqəti itirilməsi riskləri hallarından istisnalar:

6.2.1. Bu Qaydaların 6.2. bəndində nəzərdə tutulduğu kimi bədbəxt hadisə və yol nəqliyyat hadisəsi nəticəsində ölümə görə sığorta təminatı verilmiş olduğu halda Sığorta olunanın ölməsi bu Qaydaların 6.1. bəndində göstərilmiş hadisələrdən əlavə, aşağıdakıların nəticəsində də baş vermişdirsə, sığorta hadisəsi hesab edilmir:

6.2.1.1. Sığortalının, Müqavilədə faydalanan şəxs qismində göstərilən şəxsin, həmçinin Sığorta olunanın özünün (Sığorta olunanın üçüncü şəxslərin qanunaqazidd hərəkətləri ilə intihara məcbur edilməsi halları istisna olmaqla), həmçinin adı çəkilən şəxslərin hər hansı birinin tapşırığı ilə sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən edilmiş hərəkəti;

6.2.1.2. Sığorta olunanın sığorta hadisəsinin əlamətlərini daşıyan hadisə ilə birbaşa əlaqəsi olan qanunsuz hərəkətləri;

6.2.1.3. Sığorta olunanın alkoqollu, narkotik və ya toksik sərxoşluğu, o cümlədən belə sərxoş vəziyyətdə nəqliyyat vasitəsini idarə etməsi və həmçinin nəqliyyat vasitəsini belə sərxoş vəziyyətdə olan şəxsə və ya uyğun kateqoriyalı nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsə idarə etmək üçün verməsi;

6.2.1.4. Sığorta olunanın hərbi əməliyyatlar, vətəndaş qarşıdurmaları, hərbi çevrilişlər və xalq ixtişaşlarında iştirak etməsi, həmçinin sığorta olunanın hərbi xidmət keçməsi, hərbi toplanışlarda, təlimlərdə iştirak etməsi və s. bu kimi hallar;

6.2.1.5. Sığorta olunanın özünün idarə etdiyi uçuş aparatının qəzaya uğraması;

6.2.1.6. Sığorta olunanın idmanın təhlükəli növləri ilə (avto-moto idman, paraşutla tullanma, əlbəyaxa döyüş, alpinizm, dağ və su turizmi, sualtı üzgüçülük) peşəkar surətdə məşğul olması;

6.2.1.7. Sığorta olunanın ruhi-əsəb pozuntusu vəziyyətində olması;

6.2.1.8. İnsan həyatını xilas etmək məqsədi ilə edildiyi hallar istisna olmaqla, bilərəkdən özünü xüsusi təhlükə altına atma;

6.2.1.9. Sunami, zəlzələ və ya vulkan püskürməsi;

6.2.1.10. Nüvə partlayışlarının, şüalanma və radioaktiv çirklənmənin təsiri.

6.3. Əgər sığorta müqaviləsində başqa cür nəzərdə tutulmayıbsa, xəstəlik nəticəsində baş vermiş ölüm və ya əmək qabiliyyətinin itirilməsi riskləri hallarından istisnalar:

6.3.1. Bu Qaydaların 6.3. bəndində nəzərdə tutulduğu kimi xəstəlik nəticəsində ölümə görə sığorta təminatı verilmiş olduğu halda Sığorta olunanın ölməsi bu Qaydaların 6.1. bəndində göstərilmiş hadisələrdən əlavə, aşağıdakıların nəticəsində də baş vermişdirsə, sığorta hadisəsi hesab edilmir:

6.3.1.1.Spirtli içkilərin, iflicin, epilepsik tutmanın, Sığorta olunanın bütün bədəninə təsir edən qıc olmanın digər növlərinin təsiri və ya Sığorta olunanın psixi pozuntuları;

6.3.1.2. Sığorta olunanın özünün öz üzərində və ya Sığortalının təlimatı ilə hər hansı digər şəxsin Sığortalıya tətbiq etdiyi terapevtik və ya operativ müayinə metodlarının tətbiqi nəticəsində Sığorta olunanın səhhətinə ziyan dəyməsi. Lakin, terapevtik və ya operativ müayinə, və, həmçinin, rentgen diaqnostikasına zərurət, sığorta müqaviləsi ilə təminat verilən sığorta hadisəsindən irəli gəlirsə, sığorta təminatı öz qüvvəsini saxlamış sayılır;

6.3.1.3. Özü özlüyündə ciddi zədələnməni ehtiva etməyən, lakin xəstəlik törədicilərinin orqanizmə dərhal və ya müəyyən müddətdən sonra daxil olmasına şərait yaradan dəri qatının və ya selikli qişanın zədələnməsi halları fərdi qəza hadisəsinin nəticəsində baş verən zədələnməyə aid edilmir;

6.3.1.4. Sərt və ya maye şəkilli cismlərin udulması nəticəsində yaranan zəhərlənmə;

6.3.1.5. Qarın yırtığı. Qarın yırtığlığının sığorta müqaviləsi ilə təminat verilən sığorta hadisəsinin səbəb olduğu xarici fiziki təsirin nəticəsində baş verməsi hallarda sığorta təminatı öz qüvvəsini saxlamaqda davam edir;

6.3.1.6. Bağların zədələnməsi, və həmçinin daxili qan sızma və ya beyinə qan sızması. Səhhətin belə pozulmasının əsas səbəbləri sığorta müqaviləsi ilə təminat verilən sığorta hadisəsi olduqda sığorta təminatı öz qüvvəsini saxlamaqda davam edir;

6.3.1.7. Baş vermə səbəblərindən asılı olmayaraq yaranan psixi pozuntular;

6.3.1.8. Sığorta olunanın və ya onun ölümü halında sığorta ödənişini almaq hüququna malik olan şəxslərin sığorta hadisəsi hesab edilə bilən hadisənin baş verməsinə yönələn qərəzli hərəkətləti;

6.3.1.9. Sığorta olunanın hərbi əməliyyatlar, hərbi çevrilişlərdə iştirak etməsi, həmçinin Sığorta olunanın hərbi xidmət keçməsi, hərbi toplanışlarda, təlimlərdə iştirak etməsi və s. bu kimi hallar;

6.3.1.10. Psixi və ya ağır əsəb pozuntuları, hipertoniya xəstəliyi (insult), epileptik ürəkkeçmələr (tutmalar);

6.3.1.11. Zöhrəvi xəstəliklər, qazanılmış immun çatışmamazlığı sindromu (QİÇS) və immun çatışmamazlığı virusu (İÇV) ilə əlaqədar meydana gələn bütün xəstəliklər;

6.3.1.12. Hamiləlik və ya doğum;

6.3.1.13. Sığorta olunanın qəsdən özünü təhlükəyə məruz qoyması (insan həyatını xilas etmək cəhdləri istisna olmaqla), qəsdən özünə xəsarət yetirməsi, intihar və ya ona cəhd etməsi və ya tibbi məsləhətə riayət etməməsi.

## 7. Sığorta müqaviləsi

7.1. Bu Qaydalar əsasında bağlanan həyat sığortası Müqaviləsinə görə Sığortaçı Müqavilə ilə razılaşdırılmış və Sığortalının ödədiyi sığorta haqqı müqabilində Sığortalının özünün və ya Müqavilədə Sığorta olunan qismində göstərilən başqa şəxsin müəyyən yaşa çatdığı, öldüyü və ya Müqavilədə nəzərdə tutulmuş digər sığorta hadisəsinin baş verdiyi təqdirdə Müqavilə ilə şərtləşdirilmiş sığorta məbləğini bir dəfəyə və ya vaxtarışı faydalanan şəxsə ödəməyi öhdəsinə götürür.

7.2. Sığortalı sığortaçı tərəfindən təklif olunan aşağıdakı həyat sığortası sinifləri üzrə müqavilələr bağlaya bilər:

7.2.1. sığortalı və ya sığorta olunan öldükdə sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan **həyatın ölüm halından sığortası;**
7.2.2. sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə sığorta olunanın öldüyü, yaxud sığorta müqaviləsində müəyyən edilmiş yaşa, müddətə qədər yaşadığı halda sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan **həyatın yaşam sığortası;**
7.2.3. sığorta olunanın müəyyən yaşa çatması, yaşı, əlilliyi və ya xəstəliyi ilə əlaqədar əmək qabiliyyətini itirməsi, ailə başçısını itirməsi, işsiz qalması və şəxsi gəlirlərinin azalmasına, yaxud itirilməsinə səbəb olan digər hallarda pensiya, yaxud renta şəklində dövri sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan **annuitet sığortası;**
7.2.4. sığorta olunanın xəstəlik və ya bədbəxt hadisə nəticəsində əmək qabiliyyətini tam və ya qismən itirdiyi halda, onun itirilmiş gəlirinin əvəzini ödəmək məqsədilə vaxtaşırı sığorta ödənişlərinin həyata keçirilməsini nəzərdə tutan **əmək qabiliyyətinin itirilməsi halından sığorta;**
7.2.5. sığorta olunanın səhhətində onun həyatını təhlükə altına qoyan xəstəlik müəyyən edildikdə sığorta ödənişlərinin həyata keçirilməsini nəzərdə tutan **sağalmaz xəstəliklərdən sığorta.**

7.3. Bu siniflərdən hər hansı biri üzrə bağlanmış müqaviləyə görə verilən sığorta ödənişi müqavilədə müəyyən edilmiş sığorta məbləği həddində birdəfəlik və ya hissə-hissə (annuitet şəklində) ödənilir.

7.4. Müqavilənin tərəfləri aşağıdakılardır:
7.4.1. Sığortaçı - “Qala Həyat” Sığorta Şirkəti ASC

7.4.2. Sığortalı – sığorta şəhadətnaməsində adı Sığortalı kimi göstərilən və sığortaya görə haqq ödəyən hüquqi və ya fəaliyyət qabiliyyətli fiziki şəxsdir;

7.4.3. Sığorta olunan - Sığortalı tərəfindən əmlak mənafeləri sığorta olunmuş fiziki şəxs.
7.4.4. Faydalanan şəxs - Sığorta olunan, onun öldüyü halda isə Müqavilədə müvafiq olaraq fayda əldə edən qismində göstərilmiş şəxs;

7.5. Müqavilədə aşağıdakılar göstərilməlidir:
7.5.1. sığortaçının adı və ünvanı;
7.5.2. sığortalının adı (fiziki şəxs olduqda, həmçinin soyadı və atasının adı) və ünvanı;
7.5.3. sığorta predmeti olan sığorta olunan(lar)ın adı, soyadı, atasının adı, doğum tarixi və ünvanı;
7.5.4. faydalanan şəxsin adı (fiziki şəxs olduqda həmçinin soyadı, atasının adı və doğum tarixi) və ünvanı;
7.5.6. sığorta məbləğinin hər bir sığorta predmeti və ya onun hissəsinə, yaxud hər bir sığorta olunana münasibətdə ayrı-ayrı risklər üzrə miqdarı;
7.5.7. sığorta haqqının ümumi və hər bir sığorta predmeti üzrə məbləği və ödənilməsi qaydası;
7.5.8. sığorta müqaviləsinin qüvvədə olduğu müddət və ərazi;
7.5.9. sığorta müqaviləsinə əlavələr və dəyişikliklər edilməsi, həmçinin ona xitam verilməsi qaydası;
7.5.10. sığorta müqaviləsi üzrə təminat verilən sığorta riskləri, eyni zamanda əgər bu barədə razılaşdırılıbsa, müvafiq sığorta qaydalarında nəzərdə tutulmuş əlavə sığorta təminatları;
7.5.11.sığorta ödənişinin verilməsi qaydası və əsasları;
7.5.12. sığorta ödənişinin verilməsindən imtinanın əsasları;
7.5.13. sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti;
7.5.14. mübahisələrin həlli qaydası;
7.5.15. sığorta müqaviləsinin tərəflərinin qarşılıqlı razılaşması əsasında müəyyən edilən, qanunvericiliyə zidd olmayan digər şərtlər.

7.6. Müqavilənin qüvvədə olma müddəti aşağıdakı kimi müəyyən edilə bilər:
7.6.1. həyatın ölüm halından sığortası üzrə - 1 ildən az, 30 ildən çox olmamaq şərtilə;
7.6.2. həyatın yaşam sığortası üzrə - 6 aydan az, 10 ildən çox olmamaq şərtilə;
7.6.3. annuitet sığortası üzrə - 1 ildən az, 30 ildən çox olmamaq şərtilə;
7.6.4. əmək qabiliyyətinin itirilməsi halından sığorta üzrə - 1 ildən az, 30 ildən çox olmamaq şərtilə;
7.6.5. sağalmaz xəstəliklərdən sığorta üzrə - 1 ildən az, 30 ildən çox olmamaq şərtilə.

7.7. Sığorta müqaviləsinin bağlanması.

7.7.1. Sığorta müqaviləsinin bağlanması üçün müraciət Sığortalı tərəfindən Sığortaçıya müəyyən edilmiş yazılı formada ərizə ilə və ya şifahi müraciət edildikdən sonra sorğu vərəqinin doldurulub imzalanaraq sığortaçıya geri qaytarılması ilə rəsmiləşir. Müraciətdə aşağıdakılar mütləq göstərilməlidir:

- Sığorta olunanın (faydalanan şəxsin) şəxsiyyətini təsdiq edən sənədin göstəriciləri;

- Sığorta olunanın təvəllüdü;
- Sığortanın müddəti;
- Sığorta məbləği;
- Sığorta olunanın, Faydalanan şəxsin öldüyü halda sığorta təminatını alacaq şəxsin şəxsiyyət vəsiqəsinin göstəriciləri.

7.7.2. Sığortalı sığorta ilə bağlı müraciət zamanı özünə məlum olan bütün zəruri məlumatları Sığortaçıya bildirməlidir. Sığortalı müqavilənin bağlanması zamanı məlumat verərək vəzifəsini pozduqda (bu vəzifənin qəsdən yerinə yetirilməməsi halları istisna edilməklə), əgər Müqavilə bağlanmasından 5 il keçmişdirsə, Sığortaçı Müqaviləni bu əsasla ləğv edə bilməz.

7.7.3. Sığorta təminatının verilməsi üçün əhəmiyyət kəsb edən hallar barədə Sığortalı və ya Sığorta olunan tərəfindən bəyan edilməmiş və ya düzgün bəyan edilməmişdirsə, Sığortaçı Sığorta müqaviləsinin bağlanması anından 5 il müddətində Müqavilədən imtina edə bilər, sığorta hadisəsinin baş verdiyi halda isə bu müddət Sığorta müqaviləsinin bağlanması anından keçən 10 ildir.

7.7.4. Sığortalı və ya Sığorta olunan məlumat vermək vəzifəsini qəsdən yerinə yetirmədikdə Sığortaçı istənilən vaxt sığorta müqaviləsinə xitam verə bilər.

7.7.5. Vasitəçinin (agentin, brokerin və s.) məlumatlı olması faktı Sığortaçının məlumatlı olması hesab edilmir. Əgər Sığortaçıya müvafiq sənədlər təqdim etməklə sübut edilsə ki, yalan və ya tam olmayan məlumatın verilməsində Sığortalının və ya Sığorta olunanın təqsiri olmamışdır, Sığortaçının Müqavilədən imtina etməsi etibarsız hesab edilir.

7.7.6. Əgər Sığortaçı Sığorta müqaviləsindən sığorta hadisəsinin baş verməsindən sonra imtina etməsini bəyan edirsə, onun Müqavilə üzrə sığorta məbləğini ödəmək vəzifəsi o şərtlə qüvvədə qalır ki, Sığortaçının haqqında məlumatlandırılmadığı şərait və ya hal sığorta hadisəsinin baş verməsinə və ya müqavilə üzrə ödəniş məbləğinin həcminə təsir göstərməmiş olsun.

7.7.7. Sığortaçının sığortanın qəbul edilməsi barədə qərarına şüurlu və məqsədli şəkildə təsir göstərmək üçün düzgün və ya tam olmayan məlumatın verilməsi faktına görə də Sığortaçı Müqavilədən imtina edə bilər. Bu hal sığorta olunanın verdiyi məlumatlarla bağlı olduğu halda hətta Sığortalının Müqavilə bağlanarkən məlumat vermək vəzifəsinin pozulması barədə xəbərdar olmadığına baxmayaraq, Sığortaçı Müqavilədən imtina edə bilər.

7.7.8. Müqavilə bağlanarkən Sığortaçı öz tələblərinə uyğun olaraq Müqavilə üzrə Sığortalanacaq şəxsin səhhətinin tibbi müayinəsini tələb etmək hüququna malikdir. Tibbi müayinədən keçməkdən imtina edildiyi halda Sığortaçı Müqaviləni bağlamaqdan imtina edə bilər.

7.8. Sığorta olunanın yaşına qoyulan tələblər aşağıdakı kimi müəyyən edilir:

7.8.1. Bu Qaydaların 7.2. bəndində nəzərdə tutulan hər hansı sinif (təminat) üzrə sığorta qüvvəyə minən anda Sığorta olunanın yaşı 2-dən aşağı ola bilməz.

7.8.2. Əgər sığorta müqaviləsi üzrə başqa hal nəzərdə tutlmyıbsa, bu Qaydaların 7.2. bəndində nəzərdə tutulan hər hansı təminat üzrə Sığorta müqaviləsinin müddətinin bitdiyi (qüvvədən düşdüyü) anda sığorta olunanın yaşı 65-dən yuxarı ola bilməz.

7.9. Sığorta olunanın öldüyü hal üçün Faydalanan şəxsin təyin edilməsi Sığorta olunanın yazılı razılığı ilə Sığortalı tərəfindən həyata keçirilir. Sığorta olunan fəaliyyət qabiliyyətsiz olduqda və Sığorta olunan öldüyü hal üçün Faydalanan şəxsin təyin edilməsi Sığorta olunanın qanuni nümayəndəsinin yazılı razılığı ilə Sığortalı tərəfindən həyata keçirilir. Sığorta olunanın öldyü hal üçün Faydalanan şəxs təyin edilməzsə, Sığorta olunanın qanuni varisləri Faydalanan şəxslər hesab edilirlər.

7.10. Müqavilədə işəgötürənin (hüquqi şəxs) və onun işçisinin sığorta haqqının ödənilməsində payçı kimi iştirakları nəzərədə tutula bilər. Bu halda işəgötürən və onun işçisi Birgə sığortalılar olurlar. Bu halda tərəflər bir-birinə Sığorta müqaviləsindən irəli gələn Sığortalı vəzifəsinin icrasını etibar edə bilərlər.

7.11. Müqavilə, sığorta haqqının razılaşdırılmış birinci hissəsinin Sığortaçıya nağd və ya hesabına köçürmə yolu ilə ödənilməsi şərti ilə, Müqavilədə müəyyən edilmiş tarixdən qüvvəyə minir.

7.12. Sığortaçı, müqavilə qüvvəyə mindikdən 10 gün müddətində Sığortalıya sığorta şəhadətnaməsini təqdim etməlidir. Sığorta şəhadətnaməsi sığorta müqaviləsinin bağlanılmasını təsdiq edən sənəddir.

## 8. Sığorta haqqı

8.1. Sığorta haqqı Sığortaçı tərəfindən onun tarifləri əsasında seçilmiş sığorta variantı, sığorta məbləği, sığorta müddəti, Sığorta olunanın yaşı və cinsi, səhhətinin durumu və sığorta haqqının ödənilməsi qaydası nəzərə alınmaqla müəyyən edilir.

8.2. Sığortalı müqavilə bağlandıqdan 15 gün müddətində müqavilədə nəzərdə tutulmuş şərtdən asılı olaraq sığorta haqqını birdəfəlik və ya onun bir hissəsini ödəməlidir.

8.3. Sığorta haqqı Sığortaçının nümayəndəsinə və ya kassasına nağd ödəmə qaydasında və ya hesabına köçürmə yolu ilə ödənilə bilər.

8.4. Sığortalı sığorta təminatından (7.2 bəndi ilə müəyyən olunmuş siniflərdən) asılı olaraq sığorta haqqının ödənilməsinin aşağıdakı qaydalarından birini seçə bilər:

8.4.1. Sığorta təminatının ödənilməsinin müddəti müəyyən edilmiş həyat sığortası variantı istisna olmaqla həyat sığortasının bu Qaydalarla nəzərdə tutulan istənilən variantında tətbiq edilə bilən Müqavilə bağlanarkən sığorta haqqının birdəfəlik ödənilməsi;

8.4.2. Həyat sığortasının bu Qaydalarla nəzərdə tutulan istənilən variantı üzrə sığorta haqqının tədricən (aylıq, rüblük, illik) ödənilməsi. Bu zaman aşağıdakılar nəzərə alınmalıdır:

8.4.2.1. kredit götürən şəxsin həyat sığortası üzrə sığorta haqlarının tədricən ödəmələri Müqavilə müddətinin 2/3-si ərzində həyata keçirilməlidir.

8.5. Sığorta haqqının hissə-hissə ödənilməsi Müqavilədə nəzərdə tutulan sığorta hadisələrindən hər hansı birinin baş verməsi ilə dayandırılır.

8.6. Müqavilədə müəyyən edilmiş tədricən ödənilən sığorta haqqı həmin Müqavilədə göstərilən tarixlərədək ödənilməlidir. Aylıq sığorta haqqları istisna olmaqla, müddəti tədricən ödənilən sığorta haqqına 30 günlük güzəşt tətbiq edilir.

8.7. Hissə-hissə ödənilən sığorta haqqının növbəti hissəsi güzəşt müddətində belə ödənilmədikdə, Sığortaçı Sığorta müqaviləsini birtərəfli qaydada ləğv edə bilər.

8.8. Sığortalı sığorta haqqının Müqavilədə müəyyən edilmiş miqdarını və ödənilmə qaydasını Sığortaçının razılığı ilə dəyişdirmək hüququna malikdir.

**9. Sığorta müqaviləsinə xitam verilməsi**

9.1. Müqaviləyə aşağıdakı hallarda xitam verilir :

9.1.1. Müqavilədə nəzərdə tutulmuş sığorta hadisəsinin baş verməsi ilə əlaqədar Sığortaçı tərəfindən sığorta məbləğinin tam şəkildə ödənilməsi;

9.1.2. Müqaviləyə tərəflərdən birinin təşəbbüsü ilə aşağıdakı qaydada xitam verilməsi:

9.1.2.1. **Həyatın yığım sığortası üzrə:**

9.1.2.1.1. Əgər sığorta haqqının ödənilməsi üzrə öhdəliklər hələ tam şəkildə yerinə yetirilmədiyi halda sığorta olunan (digər Birgə sığortalı) bu öhdəliklərin icrasını öz üzərinə götürməmişdirsə, Sığortalının tələbi ilə - bu zaman Sığortaçı qaytarılan məbləği bu Qaydaların 10.1.2. bəndində nəzərdə tutulduğu kimi Sığortalıya ödəyir; əgər Sığortalının bu tələbi Sığortaçının Sığorta qaydalarını pozması ilə bağlıdırsa qaytarılan məbləğ Sığortalıya bu Qaydaların 10.1.1. bəndində nəzərdə tutulduğu kimi ödənilir.

9.1.2.1.2. Sığortaçının tələbi ilə; bu zaman qaytarılan məbləğ bu Qaydaların 10.1.1. bəndində nəzərdə tutulduğu kimi Sığortalıya qaytarılır. Əgər Sığortaçının bu tələbi Sığortalının Sığorta qaydalarını pozması ilə bağlıdırsa, Sığortaçı qaytarılan məbləği 10.1.2. bəndində nəzərdə tutulduğu kimi ödəyir.

9.1.2.2. **Həyatın yığım sığortasına aid olmayan həyat sığortası növləri üzrə:**

9.1.2.2.1. Sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır.

9.1.2.2.2. Sığorta müqaviləsinə sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə işlərin

aparılması xərcləri çıxılmaqla, müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır.

9.1.2.2.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı sığortalıya qaytarılmır.

9.1.2.2.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu maddənin 9.1.2.2.1.-ci və 9.1.2.2.2.-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

9.1.2.2.5. Sığorta müqaviləsi məhkəmə qərarı əsasında (sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa) xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını, bu maddənin 9.1.2.2.3-cü və 9.1.2.2.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır;

9.1.3. Əgər sığorta haqqının ödənilməsi üzrə öhdəliklər hələ tam şəkildə yerinə yetirilmədiyi halda Sığorta olunan (digər Birgə sığortalı) bu öhdəliklərin icrasını öz üzərinə götürməmişdirsə, Müqavilə müddətinin sonuna qədər hüquqi şəxs olan Sığortalının ləğvi və ya fiziki şəxs olan Sığortalının ölümü;

9.1.4. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər hallarda.

**10. Qaytarılan məbləğ və onun ödənilmə qaydası (Həyatın yığım sığortası üzrə)**

10.1. Qaytarılan məbləğ tərəflərdən birinin tələbi ilə Müqavilənin ləğv edilmə anında sığorta ödənişinin ödənilməsi ilə bağlı Müqavilədə nəzərdə tutulmuş öhdəliklərin icrası üçün Müqaviləyə xitam verildiyi günədək yaradılmış riyazi (aktuar) ehtiyyat əsasında müqaviləyə xitam verilmə səbəbindən asılı olaraq aşağıdakı kimi müəyyən edilir.

10.1.1. Qaytarılan məbləğ Müqaviləyə xitam verildiyi günədək yaradılmış riyazi (aktuar) ehtiyyat həcmində ödənilir;

10.1.2. Qaytarılan məbləğ bu Qaydaların 10.1.1. bəndində nəzərdə tutulan riyazi (aktuar) ehtiyyat məbləği ilə riskli məbləğin 1 %-i arasındakı fərq miqdarında ödənilir.

10.2. Qaytarılacaq məbləğin ödənilməsi zamanı ondan Sığortalının müqavilə üzrə bütün borcları, qaytarılmamış ssudalar və ssudalardan istifadə faizləri və həmçinin cari müqavilənin ili üçün ödənilməmiş sığorta haqqları tutulacaqdır.

10.3. Əgər Müqavilədə hüquqi şəxs olan işəgötürən və onun işçisinin sığorta haqqının ödənilməsində birgə iştirakları nəzərdə tutulmuşdursa, digərinin razılığı ilə Birgə sığortalılardan biri, əgər sığorta müqaviləsində qaytarılan məbləğin ödənilməsi nəzərdə tutulmuşdursa, qaytarılan məbləğdən sığorta haqqının ödənilməsində iştirak payına

mütəmasib olaraq öz payını almaq hüququna malikdir. Bu zaman, əgər digər Birgə sığortalı sığorta haqqının tam ödənilməsini öz üzərinə götürürsə və ya payına düşən hissəsinin ödənilməsinin yerinə yetirilməsi vəzifəsini özündə saxlayırsa, Sığorta müqaviləsinə xitam verilmir.

10.4. Sığorta olunanın səbəbi sığorta hadisəsi olmayan ölümü halında və eyni zamanda Sığorta olunanın ölümündə Faydalanan şəxsin qəsdli hərəkəti olmamışdırsa, Sığortaçı müəyyən edilmiş yazılı formada ərizəni, Sığorta olunanın ölümü haqqında şəhadətnamənin təsdiqlənmiş surətini, qaytarılan məbləğini alanın şəxsiyyətini təsdiq edən sənədi, lazım olduqda varislik hüququnu təsdiq edən hər hansı sənədi aldıqdan sonrakı 10 gün müddətində qaytarılan məbləği Faydalanan şəxsə ödəyir.

10.5. Əgər Sığorta olunanın ölümü Faydalanan şəxsin sığorta hadisəsinin baş verməsinə yönəlmiş qəsdli hərəkətin nəticəsidirsə, Sığortaçı müəyyən edilmiş yazılı formada ərizəni, Sığorta olunanın ölümü haqqında şəhadətnamənin təsdiqlənmiş surətini, qaytarılan məbləğini alanın şəxsiyyətini təsdiq edən sənədi və varislik hüququnu təsdiq edən sənədi aldıqdan sonrakı 10 gün müddətində qaytarılan məbləği Sığorta olunanın varisinə ödəyir.

10.6. Fiziki şəxs olan Sığortalının öldüyü və ya hüquqi şəxs olan Sığortalının ləğv edildiyi halda, Sığorta olunanın (digər Birgə sığortalının) tam həcmdə ödənilməmiş sığorta haqqının ödənilməsi öhdəliyini üzərinə götürməməsi şərti ilə qaytarılan məbləğ Sığorta olunana ödənilir.

10.7. Əgər Müqavilədə qaytarılan məbləğin alınması imkanı nəzərdə tutulmuşdursa, vaxtından əvvəl xitam verildiyi halda Müqavilə Sığortaçı tərəfindən həmin məbləğin ödənildiyi tarixdə qüvvədən düşür. Əgər Müqavilədə qaytarılan məbləğin alınması imkanı nəzərdə tutulmamışdırsa, vaxtından əvvəl xitam verildiyi halda Müqavilə, qanunun və bu Qaydaların tələbləri nəzərə alınmaqla, onun xitam verilməsi tələbi barədə ərizədə (məktubda) göstərilən tarixdə qüvvədən düşür.

10.8. Əgər Müqavilə 5 ildən artıq müddətə bağlanmışdırsa, Müqaviləyə vaxtından əvvəl xitam verilməsi barədə tərəflər ehtimal olunan ləğv edilmə tarixindən 3 ay əvvəl bir birini rəsmi xəbərdar etməlidirlər. Əgər Müqavilə 5 ildən az müddətə bağlanmışdırsa onda tərəflər bir birini ehtimal olunan ləğv edilmə tarixindən 1 ay əvvəl xəbərdar etməlidirlər.

## 11. Tərəflərin hüquq və vəzifələri

11.1. Sığortalının hüquqları:

11.1.1. Sığortaçı tərəfindən Sığorta müqaviləsinin şərtlərinə və bu Qaydalara əməl edilib-edilməməsini yoxlamaq;

11.1.2. Sığorta müqaviləsinin/ Sığorta şəhadətnaməsinin itdiyi halda Sığortaçıdan onun dublikatını almaq;

11.1.3. Müqavilədə sığorta hadisəsi kimi müəyyən edilmiş halların baş verməsinə qədər bu Qaydaların 10.8. bəndində göstərilmiş müddətlə bağlı tələbə əməl etməklə, yazılı formada xəbərdarlıq edərək Müqaviləni vaxtından əvvəl ləğv etmək;

11.1.4. Sığorta hadisəsinin baş verməsinə qədər Sığorta olunanın yazılı razılığı ilə onun öldüyü halda sığorta təminatı alacaq Faydalanan şəxsi təyin etmək, həmçinin yenə də Sığorta olunanın yazılı razılığı ilə onu digəri ilə əvəz etmək;

11.1.5. Müqavilənin şərtləri və bu Qaydalar üzrə hər hansı izahatlar almaq;

11.1.6. Müqavilə və bu Qaydalara uyğun olaraq qaytarılan məbləği və ya onun bir hissəsini almaq;

11.1.7. Bu Qaydaların 13-cü bəndinə uyğun olaraq ssuda almaq;

11.1.8. Sığortaçı ilə qarşılıqlı razılıq əsasınsa Sığorta müqaviləsinin sığorta məbləğinə, sığorta haqqının miqdarı və ödənilmə qaydasına, sığorta təminatının ödənilməsi qaydasına aid olan şərtlərini dəyişmək. Belə dəyişikliklər Müqaviləyə edilən əlavə ilə rəsmləşdirilir.

11.1.9. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək;

11.2. Sığortalının vəzifələri:

11.2.1. Sığorta haqqlarını Müqavilədə nəzərdə tutulmuş müddətdə və miqdarda ödəmək;

11.2.2. Sığorta hadisəsi baş verərkən, Sığortaçını bu barədə bildiyi və ya bilməyə borclu olduğu andan 30 gün müddətində yazılı şəkildə məlumatlandırmalıdır. Sığortalının hadisənin baş verməsi faktı barədə Sığortaçını məlumatlandırmaq vəzifəsi Faydalanan şəxs tərəfindən də yerinə yetirilə bilər.

11.2.3. Sığortaçıya onun tələbi ilə sığorta olunan və ya Faydalanan şəxs barədə düzgün məlumat vermək;

11.2.4. Sığortaçıya və ya onun nümayəndəsinə sığorta hadisəsi ilə əlaqəsi olan məlumatı sərbəst əldə etmək imkanı vermək;

11.2.5. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər vəzifələri yerinə yetirmək;

11.3. Sığortaçının hüquqları:

11.3.1. Sığortalının verdiyi məlumatların, həmçinin Sığortalı tərəfindən Müqavilə və Qaydalara əməl edilib - edilməməsinin yoxlanılması;

11.3.2. Sığorta hadisəsi baş verdiyi andan 3 il müddətində bu Qaydaların 12.5. bəndində nəzərdə tutulmuş müvafiq sənədlər Sığortaçıya təqdim edilməzsə, sığorta təminatının ödənilməsindən imtina etmək;

11.3.3. Sığorta olunanın səbəb olan sığorta hadisəsinin baş verməsi faktı üzrə cinayət işinin qaldırılması halında səlahiyyətli orqanın müvafiq qərarının çıxmasına qədər və ya Sığorta

olunanın (Faydalanan şəxsin) sığorta təminatını almaq hüququ barədə şübhələr olduğu halda lazımi sübutların təqdim olunmasına qədər sığorta ödənişini verməyi təxirə salmaq;

11.3.4.Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək;

11.4. Sığortaçının vəzifələri:

11.4.1. Sığortalıya və ya Sığorta olunana Qaydalar əlavə edilmiş Sığorta şəhadətnaməsini vermək;

11.4.2. Sığorta hadisəsi baş verdikdə bu Qaydaların 12.5. bəndində nəzərdə tutulmuş müvafiq sənədlərin sonuncusunu aldıqdan sonra (sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa) 15 iş günü müddətində sığorta ödənişini həyata keçirmək və ya yazılı şəkildə əsaslandırmaqla ödənişdən imtina etmək;

11.4.3. Müqavilənin icrasının, Sığortalı və Sığorta olunan barədə əldə edilmiş məlumatların məxfiliyini təmin etmək.

## 12. Sığorta təminati və onun ödənilmə qaydası

12.1. Müqavilə bağlanarkən razılaşdırılan sığorta məbləği Sığortaçı tərəfindən Faydalanan şəxsə yalnız sığorta haqqının Müqavilə ilə müəyyən edilmiş miqdarda və qaydada ödənilmiş olması şərtilə verilir.

12.2. Əgər sığorta hadisəsi növbəti tədricən ödənilən sığorta haqqının ödənilməsinin güzəşt müddətinin sonuna qədər baş vermiş, lakin müvafiq sığorta haqqı həmin güzəşt müddətinin sonuna qədər ödənilməmişdirsə, sığorta məbləği ödənilməmiş sığorta haqqı həcmində azaldılır. Əgər sığorta hadisəsi növbəti tədricən ödənilən sığorta haqqının ödənilməsinin güzəşt müddətinin başa çatmasından sonra baş vermiş, lakin müvafiq sığorta haqqı həmin güzəşt müddətinin sonuna qədər ödənilməmişdirsə, Sığortaçının sığorta təminatının ödənilməsindən imtina etmək və müəyyən edilmiş qaydada Sığorta müqaviləsini ləğv etmək hüququ yaranır.

12.3.Sığortaçı tərəfindən ödəniləcək sığorta təminatından qaytarılmamış ssudalar və onlardan istifadə faizləri də tutulacaqdır.

12.4. Sığorta ödənişinin həcmi qəza nəticəsində alınan zədələrin ağırlığından asılı olaraq sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa sığorta ödənişi aşağıdakı qaydada həyata keçiriləcəkdir.

### 12.4.1. Bədbəxt hadisə nəticəsində əmək qabiliyyətinin daimi tam və qismən itirilməsi

Sığortalı, sığorta şəhadətnaməsi ilə təminat verilən hadisənin baş verdiyi anda və ya hadisənin baş vermə tarixindən etibarən iki il ərzində həmin hadisədən aldığı xəsarətdən ömürlük əlil olarsa, ömürlük əlil olmaya görə verilən sığorta məbləği tibbi müalicənin başa çatmasından və ömürlük əlil olmanın qəti olaraq təsdiq edilməsindən sonra, əgər sığorta

müqaviləsində başqa hal nəzərdə tutlmayıbsa, aşağıda qeyd olunmuş qaydada sığortalıya ödənilir:

- əmək qabiliyyətinin daimi olaraq tam itirilməsi halında – sıgorta müqaviləsi ilə müəyyən olunmuş sığorta məbləğinin 100%-i həcmində;

- əmək qabiliyyətinin daimi olaraq qismən itirilməsi – əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa, əgər əmək qabiliyyətinin daimi olaraq qismən itirilməsi sığorta olunana müqavilə bağlandığı anda sahib olduğu peşə fəaliyyətini bir daha yerinə yetirməyəcəyinə səbəb olmuşsa, sığorta məbləğindən çox olmamaq şərtilə sığorta olunanın həmin peşə fəaliyyətini yerinə yetirə bilməməsi nəticəsində itirilmiş gəlirinin əvəzinin ödənilməsi həcmində.

**12.4.2. Bədbəxt hadisə və ya bədbəxt hadisə və xəstəlik nəticəsində əmək qabiliyyətinin müvəqqəti itirilməsi:**

- Ümumi Əmək qabiliyyətinin bədbəxt hadisə və ya xəstəlik nəticəsində müvəqqəti tam itirilməsi zamanı - əmək qabiliyyətinin itirilməsi tarixindən başlayaraq, əmək qabiliyyətinin tam itirilməsinin hər gününə görə müqavilə ilə müəyyən olunmuş məbləğin ödənilməsi;

- Ümumi Əmək qabiliyyətinin bədbəxt hadisə və ya bədbəxt hadisə və xəstəlik nəticəsində müvəqqəti qismən itirilməsi zamanı əmək qabiliyyətinin itirilməsi tarixindən başlayaraq və sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, əmək qabiliyyətinin müvəqqəti tam itirilməsi üçün nəzərdə tutulan məbləğin 50 %-nin ödənilməsi;

12.5.Sığorta təminatını almaq üçün aşağıdakılar sığortaçıya təqdim edilməlidir :

12.5.1. Sığorta olunan Müqavilə müddətinin sonuna qədər yaşaması halında – Sığorta şəhadətnaməsi, müəyyən edilmiş formada ərizə, sığorta təminatını alanın şəxsiyyətini təsdiq edən sənəd;

12.5.2. Sığorta olunanın sığorta müddətində öldüyü halda – Sığorta şəhadətnaməsi, müəyyən edilmiş formada ərizə, sığortaolunanın ölümü haqqında şəhadətnamənin təsdiq edilmiş surəti, sığorta hadisəsinin baş verməsinin səbəb və xarakterlərini müəyyən etmək üçün lazım olan digər sənədlər, sığorta təminatını alan şəxsin şəxsiyyətini təsdiq edən sənədlər və zəruri hallarda varislik hüququnu təsdiq edən sənədlər;

12.6.Sığortaçı, Sığorta olunanın ölümü ilə əlaqədar cinayət işi qaldırılması faktının mövcud olduğu hallar istisna edilməklə, bu Qaydalarda nəzərdə tutulan müvafiq sənədləri aldıqdan sonra 15 iş günü ərzində sığorta təminatını ödəməlidir.

12.7. Əgər Faydalanan şəxs Sığorta olunanın ölümü halında Müqaviləyə uyğun olaraq ona ödənilməli olan sığorta təminatını almadan ölərsə, sığorta təminatı həmin Faydalanan şəxsin varislərinə ödənilir.

12.8. Ödəniş qanunla müəyyən olunmuş qaydada təsdiq edilmiş etibarnamə əsasında Sığorta olunanın (Faydalanan şəxsin) nümayəndəsinə verilə bilər.

12.9. Əgər sığorta olunanın ölümü halında Faydalanan şəxs 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayıbsa, ona ödənilməli olan sığorta məbləği, eyni zamanda qanuni nümayəndəsini lazımi qaydada məlumatlandırılmaqla tərəflərin əvvəlcədən razılığı əsasında seçilmiş bankda onun adına açılan hesaba qoyulur.

12.10. Əgər Sığorta olunan ona bu qaydaların 5.1.1. bəndində nəzərdə tutulmuş sığorta hadisəsi üzrə ödənilməli olan sığorta təminatını almadan ölərsə, sığorta təminatı müəyyən edilmiş qaydada Sığorta olunanın varislərinə verilir.

12.11. Sığorta müqaviləsinin bağlanmasından və ya onun bərpa olunmasından 2 il keçənədək Sığorta olunanın intihar etməsi halında sığorta təminatı yalnız o şərtlə verilir ki, intiharın azad iradə ifadəsini istisna edən anlaqsız vəziyyətdə, yəni xroniki psixi xəstəlik, əqli fəaliyyətin müvəqqəti pozulması, kəmağıllıq və ya digər psixi xəstəlik nəticəsində əməlinin faktiki xarakterini dərk etmədən, yaxud ağır fiziki təsir altında törədilməsi barədə sübutlar Sığortaçıya təqdim edilmiş olsun. Əks təqdirdə qaytarılan məbləğ ödənilir.

## 13. Ssudalar

13.1. Sığortaçı, Sığortalıya (Sığorta olunana) sığorta müqaviləsinin ən azı 2 il müddətində qüvvədə olması şərtilə faizlə qaytarılan məbləğin 50% həddində, həmin məbləğ girova qoyulmaqla ssuda verə bilər. Bu halda ssuda sığorta müqaviləsinin qüvvədə olma müddətinin başa çatmasınadək qalmış vaxtdan çox müddətə verilə bilməz.

13.2. Ssudanın alınması üçün Sığortalı (Sığorta olunan) tələb olunan məbləğin həcmi və onun alınma forması göstərilməklə Sığortaçıya yazılı ərizə ilə müraciət edir.

13.3. Alınmış ərizə əsasında Sığortaçı aşağıdakı əsas müddəaları müəyyən edən müqaviləni hazırlayır :

- veriləcək ssudanın miqdarı;
- ssudanın verildiyi müddət;
- Sığortalının (Sığorta olunan) ssudadan istifadə üçün ödəyəcəyi faizlər;
- ssudanın ödənilmə qaydası.

13.4. Əgər Sığortalı (Sığorta olunan) ssudanın ödənilmə qaydasını pozarsa və əgər ssudalar və onlar üzrə ödənilməmiş bütün faizlərin cəmi qaytarılacaq məbləğə bərabər və ya ondan çox olarsa, Sığortaçı birtərəfli qaydada Sığorta müqaviləsinə xitam verə bilər.

## 14. Sığorta ödənişini verməkdən imtinanın əsasları

14.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

14.1.1. qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının (sığorta olunanın) sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

14.1.2. müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, hadisənin baş verməsinin səbəbi təminata istisna hesab olunan halların nəticəsi olması;

14.1.3. sığortalı (sığorta olunan), zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

14.1.4. sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı (sığorta olunan) tərəfindən maneçilik törədilməsi;

14.1.5. sığorta predmeti, sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

14.1.6. baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

14.1.7. Qanunvericiliklə nəzərdə tutulmuş digər hallar.

## 15. Tərəflərin məsuliyyəti

Bu Qaydaların şərtlərinin yerinə yetirilməməsinə yə ya lazımı qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## 16. Mübahisələrin həlli qaydası

Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsindən irəli gələn bütün mübahisələr ilkin olaraq danışıqlar yolu ilə, tərəflər arasında razılığa gəlinmədiyi təqdirdə isə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhkəmə qaydasında həll edilir.

## 17. Xüsusi şərtlər

Sığorta müqaviləsində bu Qaydalara və qüvvədə olan qanunvericiliyə zidd olmayan xüsusi şərtlər müəyyən oluna bilər. Sığortalı tərəfindən bu xüsusi şərtlərin yerinə yetirilməməsi Sığortaçının ödəniş verməkdən imtina etməsi üçün əsasdır.

“Qala Həyat” Sığorta Şirkəti ASC

**Həyatın yaşam sığortası və ölüm halından sığortası üzrə tarif dərəcələrinin əsaslandırılması**

Tarif dərəcə aşağıdakı düstürla hesablanır:

$$\text{Brutto D.} = \text{Netto D.}/100\text{-f} \cdot 100$$

Burada, *Brutto D.* - brutto dərəcə, *Netto D.* - netto-dərəcə, f - yüklənmə.

1. Həyatın yaşam sığortası üzrə netto-dərəcə aşağıdakı düstürla hesablanır:

$$NettoD. = {}_nE_x + {}_nA_x$$

Burada,

${}_nE_x$ - $x$ yaşında olan şəxsin $x+n$ yaşa çatmasının sığortası üzrə təyin olunan netto- dərəcədir,

${}_nA_x$ - $x$ yaşında olan şəxsin $n$ il müddətdə ölümünün sığortası üzrə təyin olunan netto- dərəcədir.

Bu dərəcələr komutasyon funksiyaların köməyi ilə aşağıdakı düstürlarla hesablanır:

$${}_nE_x = D_{x+n}/\ D_x, \qquad {}_nA_x = M_x - M_{x+n}/D_x$$

2. Həyatın ölüm halından sığortası üzrə netto-dərəcə aşağıdakı düstürla hesablanır:

$$Netto\ D. = {}_nA_x$$

${}_nA_x$ - yuxarıda təyin edilib.

f = 60% *və i = 0,08 (investisiyaların faiz dərəcəsi)* götürüb və ölüm cədvəlindən istifadə edib yuxarıda verilmiş düsturlara əsasən x və *n* -dən asılı olaraq tariflərin baza dərəcələri üçün aşağıdakı cədvəlləri qura bilərik.

**Cədvəl 1.1 Həyatın yaşam sığortası üzrə baza tarif dərəcələri (qadınlar üçün)**

| x (yaş, il) / n (müddət,il) | 18-25 | 26-35 | 36-45 | 46-55 | 56-65 |
|---|---|---|---|---|---|
| 1 -5 | 82-99 % | 82-99 % | 82-99 % | 82-99 % | 82-99 % |
| 6- 10 | 64-78 % | 64-78 % | 64-78 % | 65-78 % | 66-79 % |
| 11-15 | 50-61 % | 50-61 % | 51-62 % | 52-63 % | 54-66 % |
| 16-20 | 40-48 % | 40-48 % | 41-50 % | 43-52 % | 47-59 % |
| 21-25 | 32-38 % | 32-39 % | 33-41 % | 36-45 % | 43-56 % |
| 26-30 | 25-31 % | 26-32 % | 28-35 % | 32-41 % | 41-55 % |

**Cədvəl 1.2 Həyatın yaşam sığortası üzrə baza tarif dərəcələri (kişilər üçün)**

| x (yaş, il)<br>n (müddət, il) | 18-25 | 26-35 | 36-45 | 46-55 | 56-65 |
|---|---|---|---|---|---|
| 1 -5 | 82-99 % | 82-99 % | 82-99 % | 82-99 % | 82-99 % |
| 6 - 10 | 64-78 % | 64-78 % | 64-78 % | 65-79 % | 67-80 % |
| 11-15 | 51-61 % | 51-61 % | 51-62 % | 53-64 % | 57-69 % |
| 16-20 | 40-48 % | 40-49 % | 41-51 % | 45-55 % | 52-64 % |
| 21-25 | 32-39 % | 32-40 % | 34-43 % | 39-43 % | 39-50 % |
| 26 - 30 | 26-31 % | 27-33 % | 29-38 % | 36-48 % | 48-62 % |

**Cədvəl 2.1 Həyatın ölüm halından sığortası üzrə baza tarif dərəcələri (qadınlar üçün)**

| x (yaş, il)<br>(müddət, il) | 18-25 | 26-35 | 36-45 | 46-55 | 56-65 |
|---|---|---|---|---|---|
| 1 - 5 | 0.13-0.71 % | 0.15-1.08 % | 0.23-2.09 % | 0.43-4.56 % | 0.93-11.55 % |
| 6 - 10 | 0.75-1.36 % | 0.86-2.20 % | 1.37-4.45 % | 2.75-9.89 % | 6.09-25.09 % |
| 11-15 | 1.26-2.01 % | 1.54-3.44 % | 2.59-7.08 % | 5.33-16.05 % | 12.04-38.63% |
| 16-20 | 1.72-2.68 % | 2.23-4.85 % | 3.97-10.15 % | 8.30-23.28 % | 19.05-48.78% |
| 21-25 | 2.17-3.43% | 2.96-6.41 % | 5.50-13.71 % | 11.71-30.50% | 26.92-53.65% |
| 26-30 | 2,64-4.27 % | 3.79-8.23 % | 7.26-17.87 % | 15.73-35.92% | 34.04-54.90% |

**Cədvəl 2.2 Həyatın ölünı lıalmdan sığortası üzrə baza tarif dərəcələri (kişilər üçün)**

| x (yaş, il)<br>n (müddət, il) | 18 - 25 | 26-35 | 36-45 | 46-55 | 56-65 |
|---|---|---|---|---|---|
| 1 -5 | 0.23-1.10 % | 0.24-1.40% | 0.29-3.25 % | 0.65-7.97 % | 1.65-19.10 % |
| 6- 10 | 1.25-3.77% | 1.30-3.01 % | 1.85-7.14 % | 4.39-16.77 % | 10.59-37.42% |
| 11 - 15 | 2.05-2.81 % | 2.16-4.92 % | 3.64-11.56% | 8.70-25.94 % | 20.17-51.36% |
| 16-20 | 2.69-3,77% | 3.09-7.21 % | 5.83-16.45 % | 13.62-34.74% | 29.96-59.01% |
| 21 -25 | 3.264.91 % | 4.16-9.81 % | 8.36-21.54 % | 18.89-41.43% | 38.66-61.64% |
| 26-30 | 3.91-6.27% | 5.47-12.68 % | 11.24-26.42% | 24.28-45.10% | 44.54-62.16% |

Qeyd: Sığorta olunan şəxsin sağlamlığından, peşə fəaliyyati ilə bağlı risklərdən və s. asılı olaraq yuxarıda göstərilən baza tarif dərəcələrinə yüksəldirici və azaldırıcı əmsallar tətbiq oluna bilər.